Horizon Multidisciplinary Scientific Journal
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904



Original Research Paper

MEHDİ HÜSEYNİN TARİXİ DRAMLARI

Seyfəddin Eyvazov

https://orcid.org/0009-0009-9608-597X

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan

Article history
Received: 01.11.2026
Revised: 10.11.2026
Accepted: 22.11.2026

*Corresponding Author: Seyfəddin Eyvazov, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
Email: Seyfeddineyvazov@mail.ru

Xülasə
Məqalədə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı Mehdi Hüseynin dramaturji irsi, xüsusilə onun tarixi mövzuda qələmə aldığı pyeslər müasir ədəbiyyatşünaslıq və müstəqillik dövrünün ideoloji-estetik meyarları işığında təhlil olunur. Tədqiqatda ədibin "Şeyx Şamil" (1940–1941), "Nizami" (1940–1941) və "Cavanşir" (1943–1944) tarixi dramlarının yaranma tarixi, səhnə taleyi, janr spesifikası və obrazlar sistemi araşdırılmışdır. Müəllif sovet senzurasının sərt tələblərinə baxmayaraq, Mehdi Hüseynin tarixi faktlarla bədii təxəyyülü sintez edərək xalqın azadlıq mübarizəsini, vətənpərvərlik ruhunu və istibdada qarşı etirazını sənətkarlıqla əks etdirdiyini elmi dəlillərlə əsaslandırır.

Açar sözlər: *Mehdi Hüseyn, tarixi dram, "Cavanşir", "Nizami", "Şeyx Şamil", Azərbaycan dramaturgiyası*

GİRİŞ

İxtisasca tarixçi olan Xalq yazıçısı (1964) Mehdi Hüseyn (ilk imzası: Hüseyn Mehdi) Azərbaycan ədəbiyyatı tarixində görkəmli nasir, tənqidçi və ictimai xadim kimi tanınmaqla yanaşı, milli dramaturgiyamızın inkişafında da mühüm xidmətlər göstərmişdir. Onun "Abşeron", "Yeraltı çaylar dənizə axır" və "Qara daşlar" romanları ədəbi mühitdə trilogiya kimi yüksək qiymətləndirilir. Eyni zamanda, ötən əsrin 60-cı illərində "insana yönəlik ədəbiyyat" yaratmaq təşəbbüsü ilə çıxış edərək "Azərbaycan" jurnalında silsilə tənqidi məqalələr dərc etdirmişdir.

Ədəbi fəaliyyətə erkən başlamasına baxmayaraq, Mehdi Hüseyn dramaturji yaradıcılığa 1939-cu ildə qələmə aldığı "Şöhrət" pyesi ilə qədəm qoymuşdur. Daha sonra ədib "Şeyx Şamil" (1940–1941), "Nizami" (1940–1941), "Cavanşir" (1943–1944) kimi tarixi dramlarını, eləcə də müasir və mənəvi-əxlaqi mövzuları əhatə edən "İntizar" (1944, İlyas Əfəndiyevlə birgə), "Qardaşlar" (1948) və "Alov" (1961) pyeslərini yazmışdır. Bundan başqa, yazıçının qələmindən "Şair" (1939), "Fətəli xan" (1947, Ənvər Məmmədxanlı ilə birgə), "Səhər" (1958) və "Qara daşlar" (1958) kimi dəyərli kinossenarilər çıxmışdır.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

DOI: https://doi.org/10.5281/zenodo.24462725

Tədqiqatın məqsədi və metodologiyası. Məqalənin əsas məqsədi Mehdi Hüseynin tarixi dramlarının janr xüsusiyyətlərini, obrazlar qalereyasını və ideya-bədii dəyərini müstəqillik dövrünün elmi-nəzəri meyarları əsasında təhlil etməkdir. Tədqiqatda tarixi-müqayisəli və sistemli təhlil metodlarından istifadə olunmuşdur.

Əsas hissə

Mehdi Hüseynin dramaturgiyası Azərbaycan ədəbiyyatşünaslığında həm sovet dövründə, həm də müstəqillik illərində geniş araşdırılmışdır. Ədibin 1978-ci ildə "Yazıçı" nəşriyyatında işıq üzü görən 10 cildlik "Əsərləri"nin 8-ci cildində onun pyesləri və kinossenariləri toplanmışdır (Hüseyn, 1978). Sovet dövründə qələmə alınan bu əsərlərdə dövrün ideoloji çərçivələri hiss olunsa da, müəllif tarixi həqiqətləri və milli azadlıq ideyalarını sətiraltı mənalarla oxucuya və tamaşaçıya çatdıra bilmişdir.

"Şeyx Şamil" dramı. Yazıçının ilk ciddi tarixi-dramatik sınaqlarından biri olan on şəkilli "Şeyx Şamil" pyesi mürəkkəb və həssas bir mövzuya həsr olunmuşdur. Belə ki, həmin dövrdə Qafqaz xalqlarının Çar mütləqiyyətinə qarşı azadlıq mübarizəsi tarixçi alim Heydər Hüseynovun tədqiqatlarında da araşdırılmış, lakin alim bu mövzuya görə hakim rejimin haqsız təqiblərinə məruz qalaraq faciəli şəkildə həyatına son qoymuşdur.

Bütün bu çətinliklərə baxmayaraq, Mehdi Hüseynin "Şeyx Şamil" pyesi 1940-cı il iyunun 7-də Azərbaycan Sovet Yazıçılar İttifaqında müzakirə edilmişdir. Müzakirədə iştirak edən Səməd Vurğun, Süleyman Rüstəm, Adil İsgəndərov, Zeynal Xəlil, Rza Təhmasib, Cahanbaxış və İlyas Əfəndiyev əsəri dramaturqun mühüm yaradıcılıq axtarışı kimi dəyərləndirmişlər. Çıxış edənlər General, poruçik Rayevski, Tamarin, Soltan, Dmitri və Hacı Murad obrazlarının yüksək sənətkarlıqla işləndiyini vurğulamış, Şamil obrazı üzərində müəyyən tamamlama işləri aparmağı tövsiyə etmişlər. "Ədəbiyyat qəzeti"nin 12 iyun 1940-cı il tarixli 27-ci nömrəsində pyesin Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmasının məqsədəuyğun hesab edildiyi bildirilsə də, siyasi konyunktura səbəbindən əsər səhnəyə çıxarılmamışdır.

"Cavanşir" dramı. 1943–1944-cü illərdə qələmə alınmış 5 pərdə, 16 şəkildən ibarət "Cavanşir" dramı müəllifin üçüncü tarixi-qəhrəmanlıq əsəridir. Pyesin səkkizinci şəkli ilk dəfə 24 sentyabr 1943-cü ildə "Ədəbiyyat qəzeti"ndə, tam mətni isə 1945-ci ildə "Vətən uğrunda" jurnalının 4-cü nömrəsində (səh. 4–86) dərc olunmuşdur. Sonradan əsər müəllifin "Ölkəm" (1947) və "Seçilmiş əsərləri"nin II cildində (1954), 1959-cu ildə isə Moskvada "İskusstvo" («Искусство») və "Xudojestvennaya literatura" («Художественная литература») nəşriyyatlarında rus dilində çap edilmişdir. 1957-ci ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında səhnələşdirilən tamaşa həmin il Moskvada keçirilən Ümumittifaq Dram Teatrları Festivalında birinci dərəcəli diploma layiq görülmüşdür.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24462725

Tarixçi Moisey Kalankatlının "Alban tarixi" əsərindən qaynaqlanan bu dramda Qafqaz Albaniyasının hökmdarı Cavanşirin Sasani və Xəzər işğalçılarına qarşı apardığı istiqlal mübarizəsi ön plana çəkilir. Filologiya üzrə fəlsəfə doktoru Günel Şıxaliyeva və digər tədqiqatçılar da əsəri məhz xalqın azadlıq mübarizəsi və dövlətçilik ənənələri prizmasından qiymətləndirirlər. Dramda əsas konflikt vətənpərvər hökmdar Cavanşir və onu dəstəkləyən xalqla işğalçı Sasani sərkərdəsi Bəhram arasında gedir. Əsərin lap əvvəlində Bəhramın təkəbbürlü nitqinə Ağvan döyüşçüsü Qartalın verdiyi cavab müəllifin əsas ideyasını ifadə edir: "Mən inanıram ki, böyük sərkərdəmiz Cavanşir düşmənləri əzib vətənimizin müqəddəs torpaqlarından kənara atacaqdır. Sonra da buraya, Muğan şəhərinə hücum edib sənin qanlı hökmranlığını yıxacaqdır. O zaman namərdliklə qəsb etdiyiniz bu Ağvan torpağı azad nəfəs alacaqdır" (Hüseyn, 1978, s. 214).

Ədib əsas süjet xəttinə paralel olaraq məhəbbət (Cavanşirin oğlu Elçinlə Bəhramın qızı Reyhanın sevgisi) və xəyanət (vəzir Söhrabın və tacir Qənimətin şəxsi mənfəət naminə Bəhrama satılması) xətlərini də ustalıqla inkişaf etdirmişdir. Satqınların riyakarlığına qarşı Bəhramın öz sərkərdəsi Poladın "Belə xainlərin sədaqəti özləri kimi rəzil olur..." (Hüseyn, 1978, s. 217) sözləri dramın mənəvi-əxlaqi siqlətini daha da artırır.

"Nizami" dramı. 1940–1941-ci illərdə yazılmış 9 şəkilli "Nizami" pyesi 1942-ci ildə Bakıda, 1944-cü ildə isə Gəncə (keçmiş Kirovabad) və Şəki (keçmiş Nuxa) dövlət dram teatrlarında uğurla tamaşaya qoyulmuşdur. Professor Buludxan Xəlilovun da qeyd etdiyi kimi, bu əsərdə Nizami Gəncəvi təkcə böyük söz ustadı kimi deyil, həm də humanizm, sevgi və fəlsəfi düşüncənin rəmzi kimi canlandırılmışdır.

Pyesdə Nizaminin obrazı üç əsas istiqamətdə açılır: dərin zəkalı mütəfəkkir şair, vətəninin parçalanmasına dözməyən alovlu vətənpərvər və saf məhəbbət aşiqi. Ölkənin feodal pərakəndəliyini və Xəzər hücumları nəticəsində Bərdənin viran qalmasını görən şair eyş-işrətə qurşanmış Şirvanşaha cəsarətlə etiraz edərək tarixin səhvini düzəltməyə, vahid Azərbaycan uğrunda birləşməyə çağırır: "Əsl qüvvət də tarixin səhvini düzəldən hökmdardadır. Azərbaycanın belə bir hökmdara ehtiyacı vardır. Siz də çalışın, bir ürək on yerə parçalanmasın. Bunu sabah sizdən bütün xalq tələb edəcəkdir!" (Hüseyn, 1978, s. 184).

Əsərdə Məhsəti Gəncəvi, Afaq, Xədicə və memar Əbdək kimi yüksək mənəviyyatlı obrazlar da yaradılmışdır. Nizaminin memar Əbdəklə dialoqunda səsləndirdiyi "Dünyada əbədi olan bir şey vardır: Məhəbbət!.. Bu gözəlliyi məhəbbət yaşadacaqdır" fikri pyesin fəlsəfi-estetik qayəsini təşkil edir.

Nəticə

Xalq yazıçısı Mehdi Hüseynin tarixi dramlarının müasir ədəbiyyatşünaslıq baxımından təhlili aşağıdakı elmi nəticələrə gəlməyə əsas verir:

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24462725

1. İxtisasca tarixçi olan Mehdi Hüseyn tarixi faktlarla bədii təxəyyülü peşəkarlıqla uzlaşdıraraq Azərbaycan dramaturgiyasında tarixi-qəhrəmanlıq və tarixi-bioqrafik dram janrlarının zənginləşməsinə mühüm töhfə vermişdir.

2. Sovet ideologiyasının və senzurasının sərt nəzarətinə baxmayaraq, ədib "Şeyx Şamil", "Nizami" və "Cavanşir" pyeslərində xalqın milli özünüdərkini, istiqlal əzmini, vətənə bağlılığını və istibdada qarşı mübarizəsini bədii sənətkarlıqla əks etdirmişdir.

3. Yazıçının ədəbi tənqidlə mütəmadi məşğul olması onun dram əsərlərinin konflikt quruluşuna, xarakterlərin psixoloji dərinliyinə və səhnə dilinin təbiiliyinə müsbət təsir göstərmişdir.

4. Bu dramların müstəqillik dövrünün yeni elmi-nəzəri prinsipləri əsasında tədqiqi həm ali məktəblərdə ədəbiyyat tarixinin tədrisi, həm də müasir teatr rejissorlarının səhnə yozumları üçün mühüm elmi-praktik əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Araslı, H. (Red.). (1967). Azərbaycan sovet ədəbiyyatı tarixi (I cild). Bakı: Azərbaycan EA Nəşriyyatı.
2. Əhmədov, T. (1987). Azərbaycan sovet yazıçıları (Ədəbi sorğu kitabı). Bakı: Yazıçı.
3. Hüseyn, M. (1978). Əsərləri (10 cilddə, VIII cild: Pyeslər və ssenarilər). Bakı: Yazıçı.
4. Mirəhmədov, Ə. (Red.). (1966). Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif.
5. Vəliyev, M. (Red.). (2007). Müasir Azərbaycan ədəbiyyatı (I cild). Bakı: Bakı Universiteti Nəşriyyatı.

HISTORICAL DRAMAS OF MEHDI HUSEYN

Seyfaddin Eyvazov
PhD in Philology, Nakhchivan State University, Department of Literature and Librarianship
E-mail: Seyfeddineyvazov@mail.ru | ORCID: 0009-0009-9608-597X

Abstract. The article analyzes the dramatic heritage of the prominent representative of Azerbaijani literature, People's Writer Mehdi Huseyn, particularly his plays written on historical themes, in the light of modern literary criticism and the ideological-aesthetic criteria of the independence period. The research examines the creation history, stage destiny, genre specificity, and character system of the writer's historical dramas such as "Sheikh Shamil" (1940–1941), "Nizami" (1940–1941), and "Javanshir" (1943–1944). The author substantiates with scientific arguments that despite the strict requirements of Soviet censorship, Mehdi Huseyn skillfully synthesized historical facts with artistic imagination, reflecting the people's struggle for freedom, the spirit of patriotism, and protest against tyranny.

Keywords: *Mehdi Huseyn, historical drama, "Javanshir", "Nizami", "Sheikh Shamil", Azerbaijani dramaturgy*

ИСТОРИЧЕСКИЕ ДРАМЫ МЕХТИ ГУСЕЙНА

Сейфаддин Эйвазов
Доктор философии по филологии, Нахчыванский Государственный Университет, кафедра литературы и библиотековедения

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 167-171
DOI: https://doi.org/10.5281/zenodo.24462725

E-mail: Seyfeddineyvazov@mail.ru | ORCID: 0009-0009-9608-597X

Аннотация. В статье анализируется драматургическое наследие видного представителя азербайджанской литературы, народного писателя Мехти Гусейна, в частности его пьесы на историческую тему, в свете современного литературоведения и идейно-эстетических критериев периода независимости. В исследовании изучены история создания, сценическая судьба, жанровая специфика и система образов таких исторических драм писателя, как «Шейх Шамиль» (1940–1941), «Низами» (1940–1941) и «Джаваншир» (1943–1944). Автор научно обосновывает, что, несмотря на жесткие требования советской цензуры, Мехти Гусейн, синтезируя исторические факты с художественным вымыслом, мастерски отразил освободительную борьбу народа, дух патриотизма и протест против деспотизма.

Ключевые слова: *Мехти Гусейн, историческая драма, «Джаваншир», «Низами», «Шейх Шамиль», азербайджанская драматургия.*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license